**AZƏRBAYCAN RESPUBLİKASININ**

**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN**

**KOLLEGİYASI**

# QƏRAR

**№** 57-3

**Bakı şəhəri** **28 dekabr 2020-ci il**

## Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2020-ci il tarixli 2306 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı"nın həyata keçirilməsi ilə bağlı işçi qrupun yaradılması barədə

Azərbaycan Respublikasında uşaqların müdafiəsi və inkişafı, onların hüquqlarının qorunması dövlətin sosial siyasətində mühüm yer tutur. Azərbaycan Respublikası Prezidentinin 2 iyun 2020-ci il tarixli 2703 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası" təsdiq edilmişdir. Strategiya Azərbaycan Respublikasında uşaq hüquqları sahəsində mövcud hüquqi bazanı təkmilləşdirməklə uşaqları müdafiənin işlək mexanizminin yaradılmasına, erkən uşaqlıq dövründə onların inkişafına dövlət dəstəyi göstərilməsinə, çətin həyat şəraitində olan uşaqların müdafiəsinə, uşaqların sağlam mühitdə böyüməsinə və tərbiyəsinə, uşaqlarla bağlı həyata keçirilən tədbirlərin monitorinqi və qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsinə istiqamətlənməklə, Azərbaycanda uşaq siyasətinin əsas hədəflərini müəyyən edir.

Strategiyanın icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı" təsdiq edilmişdir.

Fəaliyyət Planı üzrə bir sıra tədbirlərin icrası, ümumilikdə nəzərdə tutulmuş tədbirlərin icrasının əlaqələndirilməsi, habelə onların icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməsi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə həvalə edilmişdir.

Fəaliyyət Planının 4-cü bəndinə əsasən onun uğurla həyata keçirilməsi üçün Komitə tərəfindən işçi qrup yaradılmalıdır. İşçi qrup prioritet istiqamətlər üzrə tədbirlərin vaxtında və səmərəli icrasına məsul olacaqdır. Fəaliyyət Planının monitorinqi və müntəzəm olaraq qiymətləndirməsi də Komitə tərəfindən həyata keçirəcəkdir. Monitorinq

və qiymətləndirmə aparılarkən tədbirlərin mahiyyəti üzrə icrasına, müvafiq prioritetlə bağlı gözlənilən nəticələrə diqqət yetiriləcək, icra müddətinə uyğunluq yoxlanılacaqdır.

"Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 17-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2020-ci il tarixli 2306 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı"nın icrası ilə bağlı işçi qrup yaradılsın.
2. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva işçi qrupun sədri təyin edilsin.
3. Uşaq problemləri şöbəsinə tapşırılsın:
   - 3.1. "Uşaqların müdafiəsi sahəsində normativ hüquqi bazanın və institusional strukturun təkmilləşdirilməsi üzrə İşçi Qrup" yaradılmasını, "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı"nın monitorinq və qiymətləndirməsini təmin etsin.
   - 3.2. İşçi qrupun tərkibinə müvafiq dövlət orqanları (siyahı əlavə olunur), beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə razılaşdırmaqla onların nümayəndələrini daxil etsin.
4. Kadr və Kargüzarlıq şöbəsinin müdiri Elmira Qurbanlı Komitənin aidiyyəti şöbələrini Qərarın surəti ilə tanış etsin.
5. Qərarın icrasına nəzarət Komitənin sədr müavini Aynur Sofiyevaya tapşırılsın.

**Kollegiyanın sədri** **Bahar Muradova**